# Azərbaycan ilə İran arasında ədliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

Ədliyyə naziri Fikrət Məmmədov İranın ölkəmizdəki səfiri Möhsün Pakayin ilə görüşüb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərindən danışan nazir dövlət başçılarının mütəmadi görüşlərini, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda İrana mühüm əhəmiyyət kəsb edən səfərinin və müxtəlif sahələr üzrə əməkdaşlığa dair imzalanmış vacib sənədlərin ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə əlavə zəmin olduğunu vurğulayıb. Həmçinin İrana qarşı tətbiq olunan sanksiyaların ləğv edilməsi münasibətilə təbriklərini çatdırıb. Azərbaycan və İran arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən səfir iki ölkənin prezidentləri arasında səmimi və qarşılıqlı etimad şəraitində görüşlərin keçirildiyini və Azərbaycan Prezidenti İlham Əliyevin Tehrana səfərinin ikitərəfli münasibətlərimizdə yeni səhifə açdığını vurğulayıb, Ədliyyə Nazirliyi ilə faydalı əməkdaşlığı qeyd edib.

Görüşdə hüquqi yardım, məhkumların verilməsi və ədliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib, qarşılıqlı səfərlərin həyata keçirilməsinə dair razılıq əldə olunub.